**Azərbaycan Respublikasının**
**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və**
**Türkiyə Respublikasının Ailə və Sosial Xidmətlər Nazirliyi**
**arasında əməkdaşlığa dair**
**Anlaşma Memorandumu**

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Türkiyə Respublikasının Ailə və Sosial Xidmətlər Nazirliyi (bundan sonra "İştirakçılar" adlandırılacaq)

- Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında mövcud əməkdaşlıq imkanlarına əsaslanaraq,
- Əlilliyi olan şəxs və ahılların, uşaq və qadınların, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər, müharibə veteranları və şəhid ailələrinin sosial rifahının təmin olunmasının hər iki ölkə baxımından əhəmiyyətini diqqətə alaraq,
- Bu Anlaşma Memorandumunun məqsədinin qarşılıqlı maraq kəsb edən sahələrdə uğurlu və faydalı ikitərəfli əməkdaşlığın qurulması niyyətinə töhfə verməsi arzusu ilə,
- İştirakçılar qabaqcıl milli təcrübələrini paylaşmaqla, qarşılıqlı faydalı və ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində səylərini birləşdirmək qərarlılıqlarını təsdiqləyərək

aşağıdakı məsələlərdə qərara gəldilər:

## Maddə 1
## Məqsədlər

Bu Anlaşma Memorandumunun məqsədi əlilliyi olan şəxs və ahılların, uşaq və qadınların, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər, müharibə veteranları və şəhid ailələrinin sosial rifahının təmin olunması üçün layihələr işləyib hazırlamaq, bilik, təcrübə və ən yaxşı tətbiq nümunələrini paylaşmaq, uşaqların qorunması xidmətlərini təkmilləşdirmək, ailələrə, əlilliyi olan şəxslərə, yaşlılara və uşaqlara göstərilən sosial xidmətlərin səmərəliliyini inkişaf etdirmək və artırmaqdan ibarətdir.

## Maddə 2
## Əməkdaşlıq sahələri

1. İştirakçılar bu Anlaşma Memorandumu çərçivəsində aşağıdakı sahələrin əhəmiyyətini təsdiq edirlər:

1. Əlilliyi olan şəxslərin təhsili, məşğulluğu, reabilitasiyası və sosial həyatda iştirakı sahələrində siyasətin müəyyən edilməsi;
2. Əlilliyi olan şəxslər və onların ailələri üçün ixtisaslaşdırılmış yaşayış və qayğı xidmətlərinin təkmilləşdirilməsi və müəssərliyin artırılması;
3. Aktiv yaşlanma, ahıllara sosial xidmət və ahılların hüquqlarının genişləndirilməsinə yönəlmiş mexanizmlərin tətbiq olunması;
4. Övladlığa götürmə, himayədar ailə xidməti, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların hüquqlarının müdafiəsinin gücləndirilməsi istiqamətində fəaliyyətin həyata keçirilməsi;
5. Müdafiəyə ehtiyacı olan uşaqlar üçün psixo-sosial risklərə qarşı tədbirlərin görülməsi;
6. Məişət zorakılığının qarşısının alınması istiqamətində göstərilən xidmətlərin keyfiyyətinin artırılması;
7. Sığınacaq, qayğı, psixo-sosial dəstək və reabilitasiya müəssisələrinin keyfiyyət və kəmiyyətinin artırılması;
8. Yoxsulluğa qarşı mübarizədə sosial yardım təcrübəsi və sosial yardımla məşğulluq arasında əlaqənin müəyyən edilməsi;
9. Şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər və müharibə veteranlarının ailələrinə maliyyə, sosial, psixoloji və mədəni sahələrdə dəstəyin göstərilməsi.

2. İştirakçılar ehtiyac olduqda, qarşılıqlı razılığa əsasən əlavə əməkdaşlıq sahələri müəyyənləşdirə bilərlər.

**Maddə 3**

**Əməkdaşlıq formaları**

1. İştirakçılar 2-ci maddədə göstərilən sahələrdə əməkdaşlığı

   a) Hesabatlar, yekun sənədlər və elmi tədqiqatların nəticələri də daxil olmaqla, İştirakçıların fəaliyyət sahələrinə aid olan qanunvericilik və aidiyyəti normativ sənədlərin mübadiləsi;
   b) Fəaliyyət sahələrinə uyğun olaraq təcrübə mübadiləsinin təmin olunması;
   c) Birgə seminar, toplantı, konfrans, təhsil proqramlarının təşkili və layihələrin tətbiqi;
   d) Bilik, müsbət tətbiq nümunələri və təcrübə mübadiləsi məqsədilə mütəxəssis mübadiləsi

   yolu ilə həyata keçirə bilər.

2. İştirakçılar, ehtiyac olduqda qarşılıqlı razılığa əsasən əlavə əməkdaşlıq formaları müəyyənləşdirə bilərlər.

**Maddə 4**

**Əlaqələndirmə**

Bu Anlaşma Memorandumunun tətbiqinə məsul olan səlahiyyətli strukturlar aşağıdakılardır:

a) Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi - Beynəlxalq əlaqələr şöbəsi;
b) Türkiyə Respublikasının Ailə və Sosial Xidmətlər Nazirliyi - Avropa İttifaqı və xarici əlaqələr şöbəsi.

**Maddə 5**

**Maliyyə tənzimləmələri**

Bu Anlaşma Memorandumunun həyata keçirilməsi üçün tələb olunan vəsaitlər hər iki İştirakçının müvafiq il üçün ayrılmış büdcə təxsisatları daxilində və müvafiq milli qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına təmin edilir. Anlaşma Memorandumu çərçivəsində nümayəndə heyəti və ekspertlərin səfərləri göndərən İştirakçının hesabına və müvafiq milli qanunvericiliyin müddəalarına uyğun həyata keçiriləcəkdir.

**Maddə 6**

**Fikir ayrılıqlarının həlli**

Bu Anlaşma Memorandumunun müddəalarının təfsiri və ya tətbiqində yaranan fikir ayrılıqları İştirakçılar arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilir.

**Maddə 7**

**Dəyişikliklər**

İştirakçıların qarşılıqlı razılığı ilə bu Anlaşma Memorandumuna onun ayrılmaz hissəsi olaraq qəbul edilən və ayrıca protokollarla rəsmiləşdiriləcək əlavə və dəyişikliklər edilə bilər. Bu əlavə və dəyişikliklər 8-ci maddənin 1-ci bəndində nəzərdə tutulan qaydada qüvvəyə minir.

**Maddə 8**

**Tətbiq və ləğv etmə**

1. Bu Anlaşma Memorandumu imzalandığı tarixdən tətbiq edilir və 3 (üç) il müddətində qüvvədə qalır. Bu Anlaşma Memorandumunun qüvvədə olma müddəti həmin müddətin başa çatmasından 3 (üç) ay əvvəl İştirakçılardan biri onu ləğv etmə barədə digər İştirakçıya yazılı bildiriş göndərmədiyi təqdirdə, üçillik müddətlərə avtomatik olaraq

uzanır. Ləğv etmə barədə bildiriş göndərildiyi halda, bu Anlaşma Memorandumu çərçivəsində başlanmış işlər başa çatana qədər davam etdirilir.

2. Bu Anlaşma Memorandumu İştirakçılar arasında əməkdaşlığı inkişaf etdirmək və gücləndirmək məqsədilə hazırlanmışdır, beynəlxalq hüquq baxımından beynəlxalq müqavilə xarakteri daşımır. Bu Anlaşma Memorandumunun heç bir müddəası İştirakçılar üçün heç bir qanuni hüquq və məsuliyyət yaradacaq şəkildə şərh və tətbiq oluna bilməz.

3. Bu Anlaşma Memorandumu Bakı şəhərində 20 iyul 2022-ci il tarixində Azərbaycan və Türk dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, hər iki mətn bərabər autentikdir.

**Azərbaycan Respublikasının**
**Əmək və Əhalinin Sosial Müdafiəsi**
**Nazirliyi adından**

**Sahil Babayev**

**Əmək və əhalinin sosial**
**müdafiəsi naziri**

**Türkiyə Respublikasının**
**Ailə və Sosial Xidmətlər Nazirliyi**
**adından**

**Dərya Yanık**

**Ailə və sosial xidmətlər naziri**